# XIX əsr Azərbaycan ədəbiyyatı və incəsənətinin intibah dövrü



**Mürsəl İrəvanlı,**

**Yazıçı-publisist, M. Qorki adına Beynəlxalq mükafat laureatı**

**Gəncə şəhəri**

**II yazı**

**(əvvəli ötən sayımızda)**

...Kazım ağa Salik 1781-ci ildə Şıxlı kəndində anadan olmuşdur. Onun ulu babaları Qazax qəzasında "Şeyxzadə" adı ilə tanınmışlar və bəzi mənbələrdə deyildiyinə görə, Şıxlı kəndinin bünövrəsini onlar qoymuşlar. Salik öz yaradıcılığında realizmə, həyatiliyə meyl göstərən və bir çox əsərlərində buna nail olan şair idi. Şeirlərinin böyük bir qismini Salik həqiqətən olmuş hadisələrlə əlaqələndirmişdir; habelə qoşmalarında təsvir etdiyi Tuba, Ceyran xanım, Varşava gözəli, Gəncədən gələn gözəl və s. şairin şəxsən gördüyü və tanıdığı gözəllərdir. Məsələn:

**Bir tək sona uçmuş Varşav gölündən,**
**Dövr eyləyib bizim çaya düşübdür.**
**Aləm rövşən olmuş rəngi-ruyindən,**
**Gün kimi şöləsi ayə düşübdür.**

Salikin bir çox qoşmalarında gözəl, behiştin mövhum hurisinə qarşı qoyulur; belə qoşmalarda şair bəzən dini ehkama qarşı çıxır.

Firuddin bəy Köçərli, "Salikin mürəbbəat növündən yazılmış şeirləri lətafət və sadəlikdə Vaqifin və Vidadinin qafiyələrindən əskik deyil, - deyə onu XVIII əsrin bu iki böyük şairinə bərabər tutmuşdur".

(Bax: F.Köçərli, Azərbaycan ədəbiyyatı tarixi materialları, I cild, Bakı, 1925, səh. 254).

Gözəllərindən əlavə, Salikin müxtəlif mövzularda, həm heca, həm də əruz vəznində yazılmış başqa şeirləri də vardır. Dövranın zülmündən şikayət edən şeirlərində, ayrı-ayrı bəylərin, ağaların və ruhanilərin tənqidinə həsr etdiyi həcvlərində, Qazaxda və ətraf bölgələrdə baş verən oğurluğu, quldurluğu və hərcmərcliyi göstərən farsca şeirində tənqidi realizmin ünsürlərinə rast gəlirik ki, belə əsərlərilə Salik öz müasirlərindən Zakirə daha çox yaxınlaşır.

Güney Azərbaycanda öz qoşma və gəraylıları ilə el içərisində böyük şöhrət qazanmış Əndəlib Qaracadağı, Nəbati, Şeqqaqi də görkəmli lirik şairlər idi.

Əndəlib Qaracadağinin zəmanəmizə gəlib çatmış divanında "Qisseyi-Leyli və Məcnun" poemasından əlavə, İrəvanın 1827-ci ildə çar ordusu tərəfindən işğal olunmasını təsvir edən bir tarixi mənzumə, qəzəl, müxəmməs, qəsidə, qoşma, gəraylı və rübai formasında xeyli şeiri vardır.

Əndəlib Qaracadağı Güney Azərbaycanda Qarabağ mahalının Əhər qəsəbəsində yoxsul bir ailədən çıxmışdır. Uzun illər kasıb bir həyat keçirdikdən sonra İrəvana gəlmiş, burada əvvəl İrəvan xanlığında katiblik etmiş, İrəvan xanlığı süqut etdikdən sonra Rusiya dövlətinin qulluğuna girərək, mayor Şubinin yanında mühafizəçi vəzifəsində çalışmışdır.

***Ə.Qaracadağinin ədəbi irsi içərisində ən qiymətli əsər 'Leyli və Məcnun" poemasıdır. Bu əsərilə Qaracadaği Nizamidən sonra Yaxın Şərqdə yetişən məşhur 'Leyli və Məcnun" müəllifləri sırasına keçmişdir. 'Qisseyi-Leyli və Məcnun'da müəyyən dərəcədə tərcümeyi-hal ünsürləri vardır. Füzulinin 'Leyli və Məcnun" poemasının təsirilə, eyni vəzn və üslubda yazılan bu əsərdə müəllifin öz aşiqanə sərgüzəşti də xüsusi yer tutur.***

Keçmiş SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun Şərq əlyazmaları bölgəsindəki 332 nömrəli qovluqda "Əşari – Əndəlib Qaracadaği" adlı bir məqalə var. Həmin tarixi məqalədə oxuyuruq:

"Qisseyi-Leyli və Məcnun" poemasında müqəddəmə əvəzi olan bir saqinamədən sonra müəllifin gənc yaşlarında Əhərdə bir qıza vurulmasının təsvirilə başlanır və müəllif əsərin qəhrəmanı olaraq Məcnunu əvəz edir:

**Əlqissə, bəni-qəribü nalan –**
**Düşdüm bu bəlayə zarü heyran,**
**Məcnuni-həzinə nayib oldum,**
**Vəhşilər ilə müsahib oldum.**

Qaracadağinin zəbt etməsini təsvir edən tarixi mənzuməsi, öz məzmununa uyğun olaraq Firdövsinin məşhur "Şahnamə"sinin vəzni olan təqarüb vəznində yazılmışdır. Qaracadağinin bədii cəhətdən daha qüvvətli şeirləri qoşma və gəraylılarıdır ki, bunlar da onu istedadlı bir xalq şairi kimi tanıtmaqdadır. Onun "gəlib", "ay mədəd, ya mədəd", "görünür", "Sona" rədifli qoşmaları məzmunu və ruhu etibarilə Vaqif şeirini xatırladır...

Güney Azərbaycanda Vaqif ədəbi məktəbinin ən görkəmli nümayəndələrindən biri də Seyid Əbülqasım Nəbati idi.

Nəbati 1812-ci ildə Qarabağ mahalının Üştibin qəsəbəsində ruhani ailəsində anadan olmuşdu. O, "Möhtərəm" ləqəbilə məşhur olan Mir Yəhya adlı seyidin oğlu idi. Şair mədrəsədə təhsil almış, Azərbaycan klassikləri – Xəyyam, Sədi, Hafiz, Rumi, Xaqani, Nizami və Füzulinin yaradıcılığı ilə tanış olmuşdu. Bu şairlərdən Hafizin şeirlərini daha çox sevirmiş.

Şair əsərlərinin çoxunu "Nəbati", az bir hissəsini isə "Xançobanı" təxəllüsü ilə yazmışdır. Nəbati haqqında tədqiqat aparanlardan bəziləri "Xançobanı" təxəllüsünü şairin uzun müddət Muğanda yaşayaraq bir xana çobanlıq etməsi, bəziləri isə "Xançobanı" tayfasının adı ilə əlaqələndirirlər. "Nəbati" təxəllüsü isə, şairin vaxtilə sevmiş olduğu Nabat adlı bir qıla bağlıdır.

Nəbati 1874-cü ildə doğulduğu kənddə ölmüş və orada da dəfn edilmişdir. Şairdən yadigar qalan yeganə divanda 7500 misraya qədər şeir vardır ki, bunun təxminən yarısı farscadır. Azərbaycanca şeirlərin çox hissəsi klassik, az hissəsi isə şifahi şeir üslubunda yazılmışdır. Lakin bu o demək deyil ki, Nəbati şifahi şeir üslubunda az yazmışdır. XIX əsrdə divan tərtib edənlər ümumiyyətlə xalq şeirinə əhəmiyyət vermədikləri üçün onu ya divana heç salmaz, ya da ona çox az yer verərdilər. Nəbati divanını tərtib edən də bu ənənəyə əsasən şairin qoşma və təcnislərindən çox azını buraya daxil etmişdir. Azad sevgi tərənnümü, gözəlin təbii və canlı təsviri, həqiqi məhəbbətin dini ibadətə, dünya gözəlinin mövhum behişt hurisinə qarşı qoyulması, dünyəvilik və nikbin əhvali-ruhiyyə Nabati qoşmalarının əsas qayəsini təşkil edir. Şairin lirik qəhrəmanı həqiqi aşiq idi. Bu aşiq gah öz sevgilisinin gözəlliyi qarşısında vəcdə gəlir, gah da sevgisi uğrunda çəkdiyi əzab və iztirablardan acı-acı şikayətlənir, canan həsrətilə çırpınır:

**Səba, məndən söylə o gülüzarə,**
**Bülbül gülüstana gəlsin, gəlməsin?**
**Bu hicran düşkünü, illər xəstəsi,**
**Qapına dərmana gəlsin, gəlməsin?**
**Mən qurbanı olum ənbər tellərin,**
**Qönçə dodaqların, püstə dillərin.**
**O lalə rusxarın, miskin xalların,**
**Oduna pərvanə gəlsin, gəlməsin?**

Bu lirik parçada bir tərəfdən "illər xəstəsi" olan aşiqin daxili aləmi, yanar qəlbi, o biri tərəfdən də aşiqi bu hala salan məşuqənin təsviri verilmişdir. Nəbati qoşmalarının çoxu bu ruhda, bu məzmundadır. Nəbatinin lirik qəhrəmanı məhəbbət yolunda çəkdiyi bəlalardan incimir və ruhdan düşmür.

***Yeri gəlmişkən qeyd edək ki, qoşma, təcnis və gəraylılarında Nəbati şifahi xalq şeirinin, xüsusilə aşıq şeirinin epitet, təşbih, mübaliğə, təzad və s. bədii üsullarından geniş istifadə edir. Bundan əlavə, Nəbati öz qoşmaları ilə xalq aşıqları içərisində bir ustad aşıq kimi tanınmışdır. Xalq aşıqları onun adına dastan da qoşmuşlar. Sözün əsl mənasında Nəbati coşqun, şairlik təbinə malik olan sənətkardır. Onun realist şeirlərində dolğun məzmun, qaynayıb coşan hisslər, fəlsəfi düşüncələr hiss olunmaqdadır...***

**(ardı var)**



***Əndəlib Qaracadağinin zəmanəmizə gəlib çatmış divanında "Qisseyi-Leyli və Məcnun" poemasından əlavə, İrəvanın 1827-ci ildə çar ordusu tərəfindən işğal olunmasını təsvir edən bir tarixi mənzumə, qəzəl, müxəmməs, qəsidə, qoşma, gəraylı və rübai formasında xeyli şeiri vardır. Əndəlib Qaracadaği Güney Azərbaycanda Qarabağ mahalının Əhər qəsəbəsində yoxsul bir ailədən çıxmışdır. Uzun illər kasıb bir həyat keçirdikdən sonra İrəvana gəlmiş, burada əvvəl İrəvan xanlığında katiblik etmiş, İrəvan xanlığı süqut etdikdən sonra Rusiya dövlətinin qulluğuna girərək, mayor Şubinin yanında mühafizəçi vəzifəsində çalışmışdır***